Rəsulullah (s) bir hədisində belə buyurur: "Haqsız qazancla əmələ gələn hər ət, ateşə daha layiqdir." Soruşdular ki: "Haqsız qazanc nədir?" Peyğəmbər (s) buyurdu: "Hökm verməde rüşvət almaqdır."

Yaradan Rəbbinin adı ilə
OXU
№012 1-7 aprel 2011 ● 28 rəbius sani - 3 cumadiəl əvvəl 1432

# MÜSƏLMAN OLMAYANLARLA MÜNASİBƏTLƏR

Professor Abdulaziz BAYINDIR



**Qurani-Kərimdə belə deyilir: "Allah din barəsində sizinlə müharibə etməyən və sizi yurd-yuvanızdan çıxartmayan kəslərə yaxşılıq etməyinizi və onlara qiymət verməyinizi qadağan etməz; düzü, Allah qədir-qiymət bilənləri (ədalətli olanları) sevər. Allah yalnız sizinlə din yolunda vuruşanları, sizi yurd-yuvanızdan çıxardanları və çıxartmaqlarına kömək edənləri özünüzə dost tutmağınızı qadağan edər. Onlarla dostluq quranlar əsl zalımlardır" ("Mumtəhinə" surəsi, 60/8-9).**

Yuxarıdakı ayələrdən belə məlum olur ki, bizim müsəlman olmayanlarla münasibətlərimizdə 3 "qırmızı xəttimiz" var:

**1)** Onların bizimlə dinimizə görə müharibə etmələri;

**2)** Bizi yurd-yuvamızdan çıxartmaları;

**3)** Bizi yurd-yuvamızdan çıxardanları dəstəkləmələri.

Biz bu xətləri keçənlərlə dostluq münasibəti qura bilmərik.

## "TÖVBƏ" SURƏSİNİN 5-Cİ AYƏSİ

Yeri gəlmişkən, belə bir fikir irəli sürülür ki, "Tövbə" surəsinin 5-ci ayəsi müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı münasibətlərdə əsas götürülür. Həmin ayə belədir:

"Haram olan aylar çıxanda (onlara verilən 4 ay möhlət başa çatanda) o müşrikləri harada görsəniz, öldürün; onları yaxalayın, həbs edin və bütün keçid başlarını (yollarını) tutun. Amma əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Allah bağışlayandır, Onun yaxşılığı sonsuzdur" ("Tövbə" surəsi, 9/5).

Bu ayə qeyd etdiyimiz "qırmızı xətlərin" hamısını keçmiş, yeni, həddini aşmış, Hudeybiyyə sülh müqaviləsini pozmuş, Məkkənin fəth edilməsindən sonra 1 il toxunulmamış, bununla yanaşı, 4 ay əlavə möhlət verilmiş Məkkə müşriklərinə edilən axırıncı xəbərdarlıq ilə əlaqədar ayələrdən biridir. Burada bəhs edilən hallara oxşar bir vəziyyət yaranmasa, bu hökmlər tətbiq edilməməlidir. Ayəyə başqa bir məna vermək da düzgün deyil.

## MÜSƏLMAN OLMAYANLARIN TƏHQİRLƏRİ

Allah belə buyurur: "Siz mallarınız və canlarınızla çətin bir imtahandan keçiriləcəksiniz. Sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən çox təhqiramiz sözlər eşidəcəksiniz. Əgər səbr edib qorunsanız, əlbəttə, bu, əzm lazım olan işlərdəndir" ("Ali-İmran" surəsi, 3/186).

İnsana əziyyət verən sözlər və təhqirə məruz qalmaq yuxarıda göstərilən "qırmızı xətlərdən" olmadığına görə belə şeylərə qarşı səbirli, tədbirli və təmkinli olmaq lazımdır.

Peyğəmbərimiz Muhəmməd (s) əvvəlcə müsəlman olan, lakin sonradan dindən üz döndərən və problem yaradıb çətinlik törədən ikiüzlü insanların əlindən çox bəlalar çəkməsinə baxmayaraq onlara qarşı faktiki bir cəza tətbiq etməyib.

"Munafiqun" surəsi bu baxımdan böyük əhəmiyyət kəsb edir: "O münafiqlər sənin yanına gələndə belə dedilər: "Biz şahidik ki, sən həqiqətən, Allahın elçisisən". Allah bilir ki, sən Onun elçisisən. Ancaq Allah şahiddir ki, o münafiqlər tamamilə yalan danışırlar. Onlar öz andlarını qalxan edib, Allahın yolundan çıxdılar. Onların əməlləri necə də pisdir! Bunun səbəbi odur ki, onlar əvvəlcə inandılar, sonra özlərini görməməzliyə vurub, kafirlik etdilər. Sonra qəlblərində başqa bir təbiət meydana gəldi. Artıq onlar anlamazlar! Onları gördüyün zaman cüssələri xoşuna gəlir, əgər danışsalar, sözlərinə qulaq asırsan. Onlar, sanki söykəldilmiş dirəkdirlər. Hər bir səs-küyün öz əleyhlərinə olduğunu zənn edirlər. Onlar düşməndirlər, onlara qarşı diqqətli ol! Allah onların canını alsın, necə də yalana yuvarlanırlar!

Onlara: "Gəlin, Allahın elçisi sizin bağışlanmağınızı diləsin", - deyildiyi vaxt başlarını bulayırlar. Bir də görürsən ki, təkəbbürlə üz döndərirlər. Sən onların bağışlanmağını diləsən də, diləməsən də, fərqi yoxdur (nəticə dəyişmir). Allah onları bağışlamayacaqdır. Çünki Allah fitnə-fəsad törədənləri doğru yola gətirməz.

Onlar hətta belə dedilər: "Allahın elçisinin yanındakılara bir şey verməyin ki, dağılışıb getsinlər". Halbuki, göylərin və yerin xəzinələri Allaha məxsusdur, ancaq münafiqlər bunu anlamazlar. Onlar: "Hələ bir Mədinəyə qayıdaq, güclü zəifi oradan mütləq çıxardacaqdır", - dedilər. Halbulki, güc-qüvvət Allaha, Onun elçisinə və möminlərə məxsusdur, lakin münafiqlər bunu başa düşməzlər" ("Munafiqun" surəsi, 63/1-8).

Zeyd ibn Ərqam bu ayələrlə əlaqədar olaraq bunları bildirib:

Biz bir dəfə Peyğəmbər əleyhissəlamla birlikdə bir döyüşə getmişdik. Ordumuzun vəziyyəti çətin idi. Abdullah ibn Ubeyy öz dostlarına belə dedi: "Allahın elçisinin yanındakılara nəfəqə verməyin ki, dağılışıb getsinlər. Hələ bir Mədinəyə qayıdaq, güclü zəifi oradan mütləq çıxardacaqdır". Mən bunu dərhal Peyğəmbər əleyhissəlama xəbər verdim. O, Abdullah ibn Ubeyyi çağırtdırıb bunu onun özündən soruşdu. Abdullah and içdi ki, belə bir şey deməyib. Orada olanlar isə mənim yalan danışdığımı dedilər. Bu, mənə çox pis təsir bağışladı. Sonra Allah Təala tərəfindən "Munafiqun" surəsi nazil edildi. (Buxari, "Munafiqun" surəsinin təfsiri, 4).

Elmalılı Muhammed Hamdi Yazır bu məsələ ilə əlaqədar olaraq belə məlumat verir:

Abdullah ibn Ubeyy öz tayfasında nüfuzlu və hörmət sahibi bir şəxs idi. Bir gün Useyd ibn Hudeyr gəlib Peyğəmbərə: "Ey Allahın elçisi! Ona fikir vermə, onunla xoş rəftar et. Vallah, Allah səni peyğəmbər göndərdiyi vaxt Abdullah ibn Ubeyyin tayfası ona tac geyindirmək üçün muncuq düzürdü. Ona elə gəlir ki, sən onun hökmdarlığını əlindən almısan".

Abdullah ibn Ubeyyin oğlu Abdullah isə atasından fərqli olaraq təmiz bir mömin idi. O, atasının etdiklərini öyrənən kimi Peyğəmbər əleyhissəlamın yanına gəlib belə dedi:

"Ey Allahın elçisi! Eşitmişəm ki, atamı sizə gəlib çatan sözlərinə görə öldürmək istəyirsiniz. Əgər belə edəcəksinizsə, əmr verin, onun başını sizə mən gətirim. Vallah, bütün Xəzrəc (məşhur Ərəb qəbilələrindən biri) bilir ki, onların arasında öz atasına məndən çox hörmət göstərən yoxdur. İndi isə qorxuram ki, başqa bir adama əmr verəsiniz və o, atamı öldürə. Belə olarsa, mən atamın qatilinin el-oba arasında gəzməyinə dözə bilməyib onu öldürərəm. Beləliklə, bir kafirin əvəzinə bir mömin öldürüb cəhənnəmlik olaram".

Peyğəmbər əleyhissəlam Abdullahın bu sözlərindən sonra ona: "Xeyr, biz ona qarşı alicənablıq edərik. O, bizim aramızda olduqca onunla xoş rəftar edərik", - deyə buyurdu. (Elmalılı Muhammed Hamdi Yazır, Haqq Dini, Qur'an Dili, VI cild, İstanbul, 1936, s. 5005-5008.)

Burada Abdullah ibn Ubeyyin hərəkətləri çox pis olsa da, haqqında danışdığımız üç "qırmızı xətdən" heç birini "keçmədiyinə" görə Peyğəmbər (s) onunla yuxarıdakı ayələrə əsaslanaraq yaxşı rəftar edib. Abdullah kimi şəxsləri ən çox narahat edən məsələ də onların həqiqətlərlə üz-üzə gəlmələridir. Bu şəxslərin pis əməllərini ayələrdəki kimi saydıqdan sonra cəmiyyətdə belə bir rəy formalaşır ki, onlar mütləq cəzalandırılmalıdırlar. Bundan sonra onlarla yaxşı rəftar etmək əslində onların özlərini tək-tənhalığa aparır və hətta öz tərəfdarlarını da itirirlər. Həqiqətən də, Peyğəmbərimizin xoş rəftarı Abdullah ibn Ubeyyin ətrafındakı insanların müsəlman olmasına gətirib çıxarmışdı.

## DİNDƏN ÜZ DÖNDƏRƏNİN VƏ PEYĞƏMBƏRİ TƏHQİR EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ MƏSƏLƏSİ

Yuxarıda göstərilən ayələrdəki "onlar əvvəlcə inandılar, sonra özlərini görməməzliyə vurub, kafirlik etdilər" ifadəsi bizə bu şəxslərin mürtəd olduqlarını açıq-aşkar bildirir. Lakin məzhəblərin hamısı bu və ya buna bənzər ayələrin məzmununa baxmayaraq mürtədlərin öldürülməli olduqlarını deyirlər.

Ayələrdə "Onlar düşməndirlər, onlara qarşı diqqətli ol", - deyilir və burada bundan başqa bir hökm yoxdur. Məzhəblər yenə buna baxmadan və tutarlı bir dəlilə əsaslanmadan Peyğəmbəri (ə) təhqir edənlərin öldürülməli olduqlarını irəli sürürlər (Vəhbə Əz-Züheyli, Əl-fiqhul-İslami və ədillətuh, 3. nəşr, Dəməşq, 1409/1989, VI cild, s. 184).

Bütün bunlardan belə bir nəticə çıxır ki, indiki dövrdə bu məsələlər ilə əlaqədar ən böyük çətinliyimiz müsəlmanları Qurani-Kərimin ətrafında toplamaqdan ibarətdir.